# Gənclər Kitabxanasında Seyid Əzim Şirvaninin 190 illik yubileyi çərçivəsində virtual sərgi hazırlanıb

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, qüdrətli şair və böyük maarif xadimi Seyid Əzim Şirvaninin 190 illik yubileyi çərçivəsində virtual kitab sərgisi hazırlanaraq istifadəçilərə təqdim edilib.

Kitabxanadan bildirilib ki, "Şair, maarifçi, publisist - Seyid Əzim Şirvani" adlı virtual sərgidə bir sıra rəsmi sənədlərin tam mətni, Prezident İlham Əliyev və görkəmli şəxslərin ədib haqqında söylədikləri dəyərli fikirlər, şairin müdrik kəlamları yer alır.

Kitabxana əməkdaşları tərəfindən hazırlanan materialda Seyid Əzim Şirvaninin şeirləri, qəzəlləri, təmsilləri, rübailəri, növhələri, müxəmməs və müsəddəsləri ilə yanaşı, Azərbaycan, türk, özbək və rus dillərində nəşr edilən "Seçilmiş əsərləri" 3 cilddə, "Hekayələr, təmsillər", "Seyidəm ərseyi-eşq içrə", "Aləmdə səsim var mənim", "Məhəmməd Füzuli və Seyid Əzim Şirvaninin nət və qəsidələrinin şərhi" kimi 10-dan çox kitabının tam mətni təqdim edilir. Virtual kitab sərgisində "Xalq qəzeti", "Respublika", "525-ci qəzet", "İki sahil", "Səs" kimi dövrü mətbuat səhifələrində işıq üzü görən "Füzuli ədəbi məktəbinin layiqli davamçısı", "Zəngin ədəbi irsi ilə əbədiyaşarlıq qazanmış şair", "Söz və elm uğrunda maarifçilik ideyalarının carçısı", "Seyid Əzimin poetik əzmi" kimi məqalələrin də tam mətni sərgilənir.

525-ci qəzet. - 2025.- 1 oktyabr (№177).- S.9.